# “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tibbi xidmətlərin göstərilməsinə və həmin xidmətlər çərçivəsində dərman vasitələrinin təqdim edilməsinə əlavə dəyər vergisinin həmin verginin Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən olunmuş dərəcəsindən daha aşağı dərəcə ilə tətbiqi (differensial ƏDV-nin tətbiqi) ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.80-ci maddəsinə uyğun olaraq, startapın müəyyən olunması meyarlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.5. həmin Məcəllənin 16.1.8-ci maddəsinə uyğun olaraq, nəzarət-kassa aparatının meyarlarını Azərbaycan Respublikası Vergilər Nazirliyinin təklifləri əsasında müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.6. həmin Məcəllənin 16.1.11-9-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyinin təklifləri əsasında, məcburi nişanlama ilə nişanlanmalı malların dövriyyəsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.7. həmin Məcəllənin 22-1.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nı Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.8. həmin Məcəllənin 26.2-1-ci maddəsinə uyğun olaraq, vergi orqanlarının vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Vergilər Nazirliyinə məlumat təqdim etməli olan dövlət orqanları (qurumları) ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin, habelə həmin dövlət orqanlarının (qurumlarının) təqdim etməli olduğu məlumatın hədlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.9. həmin Məcəllənin 50-2.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan məcburi nişanlama ilə nişanlanmalı olan malların siyahısını, həmin mallara məcburi nişanlamanın tətbiqi, vergi ödəyicilərinə verilməsi və uçotunun aparılması qaydasını, Azərbaycan Respublikası Vergilər Nazirliyinin təklifləri əsasında, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.10. həmin Məcəllənin 50-2.4-cü maddəsinə uyğun olaraq, məcburi nişanlamanın verilməsinə görə dövlət rüsumunun məbləği ilə bağlı təkliflərini və müvafiq qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.11. həmin Məcəllənin 98.2.7-ci maddəsinə uyğun olaraq, vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa əməliyyatlarının aparılması qaydasını Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.12. həmin Məcəllənin 106.1.18-ci maddəsinə uyğun olaraq, elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların meyarlarını müəyyən etsin;

1.1.13. həmin Məcəllənin 111.3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyinin təklifləri əsasında, xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması qaydasını təsdiq etsin;

1.1.14. həmin Məcəllənin 165.5-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları istisna olmaqla) görə ödənilmiş ƏDV-nin qaytarılması qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. bir ay müddətində:

1.2.1. həmin Məcəllənin 101.1-4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında, neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun meyarlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.2.2. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsinə uyğun olaraq, nəzarət-kassa aparatlarının tətbiqi qrafikini Azərbaycan Respublikası Vergilər Nazirliyinin təklifləri əsasında müəyyən etsin;

1.3. “Sosial sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında və

Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilmiş dəyişiklikləri, “Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 6 nömrəli Sərəncamı ilə vergi orqanlarının qarşısında qoyulmuş vəzifələrin icrasının təmin edilməsinin zəruriliyini, habelə dövlət xidmətlərinin həyata keçirilməsində vergi orqanları işçilərinin iştirakını nəzərə alaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyinin təklifləri əsasında onun ştat vahidlərinin sayının artırılmasını və maddi-texniki təminatı məsələlərinin həllini, eləcə də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə inteqrasiyasını on beş gün müddətində təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 2.2-ci (hər üç halda), 2.3-cü maddələrində, 2.6-cı maddəsinin birinci cümləsində və 2.9-cu maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 2.2-ci maddəsində (birinci və üçüncü hallarda) “orqan” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 2.2-ci (ikinci halda), 2.3-cü maddələrində, 2.6-cı maddəsinin birinci cümləsində və 2.9-cu maddəsinin üçüncü cümləsində “orqan” dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

3.1. aşağıdakı normativ hüquqi aktları üç ay müddətində qəbul etsin:

3.1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.72-ci maddəsinə uyğun olaraq, müqavilənin formasını;

3.1.2. həmin Məcəllənin 16.1.3-1-ci maddəsinə uyğun olaraq, məlumatın siyahısını və formasını;

3.1.3. həmin Məcəllənin 16.6-cı maddəsinə uyğun olaraq, məlumatın formasını;

3.1.4. həmin Məcəllənin 16.7-ci maddəsinə uyğun olaraq, məlumatın formasını;

3.1.5. həmin Məcəllənin 24.0.6-cı maddəsinə uyğun olaraq, nəzarət-kassa aparatlarının elektron uçotunun aparılması qaydasını;

3.1.6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, həmin Məcəllənin 34.3-1-ci maddəsinin ikinci abzasının birinci cümləsinə uyğun olaraq, vergi ödəyicisinin təsərrüfat subyekti (obyekti) üzrə yenidən uçota alınması qaydasını;

3.2. üç ay müddətində aşağıdakılarla bağlı təklifləri hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin:

3.2.1. əlavə dəyər vergisinin inzibatçılığının, o cümlədən vergiyə cəlb olunan əməliyyatın vaxtının təqdim edilmiş mala (işə, xidmətə) görə pul vəsaitinin vergi ödəyicisinin sərəncamına daxil olduğu vaxtla müəyyən edilməsi;

3.2.2. bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin vahid vergi rejimində fəaliyyət göstərməsinin təmin edilməsi;

3.2.3. əmtəəsiz əməliyyatlar apararaq və yalan əqdlər bağlayaraq vergidən yayınan vergi ödəyicilərinin fəaliyyətinin qarşısının alınması, habelə bu cür əməliyyatların vergiyə cəlb edilməsi ilə bağlı kompleks tədbirlər;

3.3. on gün müddətində:

3.3.1. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 2.3-cü maddəsinə və 2.6-cı maddəsinin birinci cümləsinə uyğun olaraq, məlumatın formalarını müəyyən etsin;

3.3.2. həmin Qanunun 2.9-cu maddəsinin üçüncü cümləsinə uyğun olaraq aktın formasını müəyyən etsin;

3.4. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən bu Fərmanla verilmiş tapşırığa uyğun olaraq, aksiz markalarının hazırlanmasını, satışını və uçotunun aparılmasını Azərbaycan Respublikası Vergilər Nazirliyinin təşkil etməsinə dair tənzimləmə qüvvəyə minənədək həmin vəzifələrin həyata keçirilməsi bu Fərman qüvvəyə mindiyi günədək mövcud olan normativ hüquqi aktların tələblərinə uyğun olaraq həyata keçirilsin.

5. “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 8 (III kitab), maddə 616; 2005, 12, maddə 1099; 2006, 5, maddə 400, 12, maddə 1034; 2007, 4, maddə 323, 12, maddə 1225; 2008, 11, maddə 972; 2009, 3, maddə 163, 4, maddə 226, 10, maddə 780; 2010, 7, maddə 610; 2011, 7, maddə 631; 2013, 7, maddə 805, 11, maddə 1324; 2014, 4, maddə 359, 5, maddə 477, 9, maddə 1027, 10, maddə 1198, 11, maddələr 1390, 1420; 2015, 1, maddə 12, 12, maddə 1454; 2016, 2 (II kitab), maddələr 261, 265, 3, maddə 450, 5, maddə 882, 6, maddələr 1023, 1024, 1042, 1065, 7, maddə 1257, 9, maddə 1464, 11, maddə 1838, 12, maddə 2089; 2017, 5, maddələr 760, 811, 845, 7, maddə 1344, 8, maddə 1521, 9, maddələr 1830, 1843) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 2.8-ci maddəsində (hər iki halda), 13.2.52-ci, 13.2.53-cü, 13.2.58-ci, 13.2.59-cu, 13.2.72-ci (hər iki halda), 13.2.75-ci, 13.2.78-ci (hər üç halda), 13.2.79-cu, 13.2.80-ci (hər iki halda), 16.1.3-1-ci (hər iki halda), 16.1.4-cü, 16.1.8-ci (hər iki halda), 16.1.11-9-cu, 16.6-cı (hər iki halda), 16.7-ci (hər iki halda) maddələrində, 22-1.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 23.1.15-4-cü maddəsində, 24.0.6-cı maddəsinin ikinci cümləsində, 24.0.7-1-ci, 26.2-1-ci (hər üç halda), 27.2-ci, 28.3-cü, 30.6.8-ci, 30.6.9-cu (hər iki halda), 33.10-cu maddələrində, 34.3-1-ci maddəsinin ikinci abzasının birinci cümləsində, 50.1.9-cu, 50-2.1-ci, 50-2.2-ci, 58.8-ci, 65.2.1.2-ci,

65.2.1.3-cü, 65.2.2-ci (hər iki halda), 65.2.3-2-ci, 65.2.3-3-cü (hər iki halda), 67-1.3-cü, 67-2.4-cü, 98.2.7-ci, 101.1-4-cü, 102.1.4-cü, 102.1.17-ci, 102.1.21-ci, 102.1.28-ci, 102.1.29-cu (hər iki halda), 102.1.33-cü, 106.1.5-ci, 106.1.9-cu, 106.1.10-cu, 106.1.12-ci, 106.1.13-cü, 106.1.18-ci, 106.1.24-cü, 122.3-cü, 128.3-cü, 130.1-1-ci, 150.1.13.3-cü, 150.3-4-cü, 164.1.15-ci (birinci halda), 164.1.16-cı (birinci halda), 164.1.20-ci, 164.1.28-ci (birinci və ikinci hallarda), 164.1.35-ci, 164.1.36-cı, 164.1.40-cı, 164.1.42-ci, 165.1.7-ci (hər iki halda), 165.3-cü, 165.4-cü (ikinci halda) maddələrində, 165.5-ci maddəsinin birinci cümləsində, 194.1-ci maddəsinin birinci cümləsində, 194.1-1-ci, 199.7-ci, 199.8-ci, 199.16-cı (hər iki halda), 207.3-cü, 207.4-cü və 207.7-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

5.2. 1.1-1-ci, 1.1-2-ci və 1.1-3-cü bəndlərdə "22-1-ci" sözləri "22-1.1-ci" sözləri ilə əvəz edilsin;

5.3. 1.1-3-cü bənddə "Əsasnamənin" sözü "Məcəllənin" sözü ilə əvəz edilsin;

5.4. aşağıdakı məzmunda 1.1-4 – 1.1-8-ci bəndlər əlavə edilsin:

"1.1-4. həmin Məcəllənin 22-1.2-ci maddəsinin ikinci cümləsində "orqan" dedikdə vəsaitin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçilərinə və vergi orqanları işçilərinə münasibətdə) nəzərdə tutulur;

1.1-5. həmin Məcəllənin 22-1.2-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.1-6. həmin Məcəllənin 22-1.2-ci maddəsinin birinci cümləsində "orqanların (qurumların) maddi-texniki bazası" dedikdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin maddi-texniki bazaları nəzərdə tutulur;

1.1-7. həmin Məcəllənin 22-1.2-ci maddəsinin birinci cümləsində "orqanların (qurumların) işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və vergi orqanlarının işçiləri nəzərdə tutulur;

1.1-8. həmin Məcəllənin 58.8-ci, 67-2.4-cü, 102.1.29-cu (birinci halda), 150.1.13.3-cü maddələrində, 165.5-ci maddəsinin birinci cümləsində, 199.16-cı (ikinci halda) və 207.7-ci (ikinci halda) maddələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

5.5. 1.2-ci bənddən ", 194.1-ci (birinci cümlədə)" sözləri çıxarılsın;

5.6. aşağıdakı məzmunda 1.2-1-ci bənd əlavə edilsin:

"1.2-1. həmin Məcəllənin 13.2.75-ci, 13.2.80-ci (birinci halda), 16.1.8-ci (birinci halda), 16.1.11-9-cu, 26.2-1-ci (ikinci halda), 50-2.1-ci, 98.2.7-ci, 101.1-4-cü, 106.1.18-ci maddələrində və 194.1-ci maddəsinin birinci cümləsində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

5.7. 1.4-cü bənddən "16.1.4-cü," və "38.5-ci," sözləri çıxarılsın və həmin bəndə "192.1-ci" sözlərindən sonra "maddələrində, 194.1-ci maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin;

5.8. aşağıdakı məzmunda 1.4-1-ci bənd əlavə edilsin:

"1.4-1. həmin Məcəllənin 13.2.72-ci (hər iki halda), 13.2.78-ci (birinci və ikinci hallarda), 16.1.3-1-ci (hər iki halda), 16.1.4-cü, 16.1.8-ci (ikinci halda), 16.6-cı (hər iki halda), 16.7-ci (hər iki halda), 24.0.6-cı, 26.2-1-ci (üçüncü halda) maddələrində, 34.3-1-ci maddəsinin ikinci abzasının birinci cümləsində, 50-2.2-ci, 65.2.1.2-ci, 65.2.1.3-cü, 65.2.2-ci (hər iki halda), 65.2.3-2-ci, 65.2.3-3-cü (hər iki halda) və 150.3-4-cü maddələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur;";

5.9. 1.5-ci bənddən ", 194.1-ci (ikinci cümlədə)" sözləri çıxarılsın;

5.10. aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

"1.5-1. həmin Məcəllənin 30.6.8-ci maddəsində "orqan" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;";

5.11. aşağıdakı məzmunda 1.12-1-ci və 1.12-2-ci bəndlər əlavə edilsin:

"1.12-1. həmin Məcəllənin 33.10-cu maddəsində "orqan" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.12-2. həmin Məcəllənin 102.1.33-cü, 106.1.24-cü və 164.1.42-ci maddələrində "qurum" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin bu məqsədlə yaratdığı hüquqi şəxs nəzərdə tutulur;";

5.12. 1.32-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.32. həmin Məcəllənin 13.2.78-ci (üçüncü halda), 13.2.79-cu, 13.2.80-ci (ikinci halda) və 164.1.40-cı maddələrində "qurum" dedikdə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi nəzərdə tutulur;";

5.13. aşağıdakı məzmunda 1.33 – 1.35-ci bəndlər əlavə edilsin:

"1.33. həmin Məcəllənin 30.6.9-cu (hər iki halda), 102.1.29-cu (ikinci halda) və 106.1.5-ci maddələrində "qurum" dedikdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu nəzərdə tutulur;

1.34. həmin Məcəllənin 102.1.28-ci maddəsində "qurum" dedikdə Mənəvi Dəyərlərin Təbliği Fondu nəzərdə tutulur;

1.35. həmin Məcəllənin 199.16-cı (birinci halda) və 207.7-ci (birinci halda) "qurum" dedikdə "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti bank olmayan kredit təşkilatı nəzərdə tutulur.".

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

7. Bu Fərman 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 dekabr 2018-ci il
414